**Kart bazarının inkişafına təkan verən yeni ödəniş sistemi**

Ekspertlərin fikrincə, «Taksitlə ödəmə» nağdsız dövriyyənin həcmini genişləndirəcək

Vergilərdən yayınmanın qarşısının alınmasının, maliyyə intizamının möhkəmləndirilməsinin mühüm şərti kimi nəzərdən keçirilən nağdsız ödənişlərin həcminin genişləndirilməsi üçün dünya təcrübəsində maarifləndirmə və təbliğat vasitələrindən əlavə, həvəsləndirici üsullardan da geniş istifadə olunur. Xüsusən də nağdsız ödəniş sisteminin inkişafında maraqlı tərəf kimi çıxış edən banklar tərəfindən həyata keçirilən müxtəlif kampaniyalar kart bazarının dinamik inkişafına təkan verir.

Əksər Avropa ölkələrində, o cümlədən Türkiyədə bankların çoxdandır ki, reallaşdırdıqları hissələrlə - taksitlə ödəniş sisteminin bu ilin əvvəllərindən Azərbaycanda da tətbiqinə başlanılması mühüm yeniliklərdən biri kimi diqqəti çəkir. Taksitlə ödənişə imkan verən yeni plastik kartların qısa zamanda əhali arasında populyarlaşması həm də onunla şərtlənir ki, yeni sistem mühüm üstünlükləri ilə bank, ticarət və xidmət müəssisələri ilə yanaşı, vətəndaşları da razı salır. Belə ki, taksit kartlarının istifadəçiləri istehlak kreditindən daha münasib maliyyələşdirmə sistemi olan «Taksit xidməti»ndən yararlanırlar.

Ölkə bankları taksit kartlarına yiyələnmək istəyən müştəriləri üçün əvvəlcədən müəyyənləşdirilmiş həddə - əksərən, 1000-5000 manat məbləğində vəsait ayırırlar. Taksit kartlarının sahibləri müxtəlif mal və xidmətlərdən istifadə zamanı bu vəsaitdən istifadə edirlər. Belə ki, onlar almaq istədikləri məhsulları, qiymətə heç bir əlavə olunmadan, müəyyən zaman ərzində hissələrlə, ən əsası, faizsiz geri ödəmək imkanı qazanırlar. Bu kartların sahiblərinə banklarla tərəfdaş alış-veriş və xidmət məntəqələrindən (geyim, məişət texnikası, kompüter, telefon, mebel, restoran, aptek, turizm, sığorta və s.) satın alınan xidmət və ya məhsulların dəyərini - 1, 3, 6 və ya 12 ay müddətində, faizsiz ödəmək, eyni zamanda bonus qazanmaq və onu məhdudiyyətsiz xərcləmək imkanı yaradılır. Mal və xidmətlərin hissə-hissə ödənilməsi kart bazarının inkişafı ilə yanaşı, əhalinin alıcılıq qabiliyyətini də stimullaşdırır, ümumilikdə ticarət və xidmət sahibkarlığının yüksəlişinə imkan yaradır. Kartdan xərclənmiş vəsait hissələrə bölünərək hər ayın 10-dək banklara ödənilir. Hissələrlə ödənişi banklara digər plastik kart vasitəsilə - onlayn rejimdə də etmək mümkündür. Müştərinin ödədiyi vəsait dərhal onun hesabına mədaxil edilir və kredit xətti 3 il müddətində dəfələrlə istifadə oluna bilər.

Ekspertlərin fikrincə, ölkəmizdə taksitlə ödəmə sisteminin inkişafı vətəndaşların maraqlarına cavab verməklə yanaşı, ölkədə nağdsız dövriyyənin həcminin yüksəlməsinə, kart bazarının inkişafına əsaslı təkan verə bilər. «Milli kart» prosessinq mərkəzinin əməliyyat şöbəsinin rəisi İlqar İbrahimov bir sıra ölkələrdə mövcud olan bu təcrübənin Azərbaycanda geniş tətbiqinə başlanılmasını mühüm yeniliklərdən biri kimi qiymətləndirir: «Son illərdə ölkədə nağdsız ödəniş sistemi istiqamətində atılan addımlar geniş vüsət almışdır. Dövlət başçısının ölkədə nağsız dövriyyənin həcminin artırılması ilə bağlı verdiyi tapşırıqlara müvafiq olaraq, Vergilər Nazirliyi və Mərkəzi Bank bu istiqamətdə sistemli tədbirlər həyata keçirir. Ticarət və xidmət obyektlərində POS-terminalların quraşdırılması, vətəndaşların bu sahədə maarifləndirilməsi, eləcə də stimullaşdırıcı layihələrin həyata keçirilməsi kart bazarının inkişafına təkan verir. Fikrimcə, son ayların mühüm yeniliklərindən biri də banklar tərəfindən taksitlə, yəni hissələrlə ödəməni nəzərdə tutan yeni plastik kartların emissiya olunmasıdır. Bu kartlar istənilən mal və xidmətləri hissələrlə, əsasən, faizsiz əldə etmək imkanı yaratdığı üçün əhalidə maraq doğurur. Sözügedən sistemdən həm banklar, həm ticarətçilər, həm də istehlakçılar qazanırlar. Plastik kartları əldə edən vətəndaşların sayının sürətlə artması nağdsız dövriyyənin də genişlənməsinə imkan verir».

Ekspertin fikrincə, Azərbaycan banklarının tətbiq etdikləri yeni sistem bəzi xırda çatışmazlıqlarına baxmayaraq, özünü doğruldur. Ölkə bankları taksitlə ödəməni nəzərdə tutan kartların emissiyasını qısa zamanda sürətlə artırmağa nail olublar: «Hazırda «Bank of Baku» «Bolkart», «ASB bank» «EkstraCard», «DəmirBank» «Aykart», «Unibank» «Albalı kart», «Yapı Kredi» «WorldCard» plastik kartlarını emissiya edir. Müşahidələr göstərir ki, vətəndaşların taksitlə ödəməni nəzərdə tutan kartlara marağı böyükdür. Məsələn, kampaniyaya ilk başlayan «Bank of Baku»nun qısa müddətdə 30 minə yaxın «Bolkart» müştərisi var. Ümumiyyətlə, on minlərlə insanın

hissələrlə alış-veriş etməsi nağdsız ödənişlərin həcminin qarşıdakı illərdə kəskin artımına imkan verəcək».

«DəmirBank»ın İdarə Heyəti sədrinin müavini Yusif Cabbarov da taksitlə ödəmə sisteminin bir sıra üstünlüklərə malik olduğu qənaətindədir. Onun sözlərinə görə, «DəmirBank» strateji hədəflərinə uyğun olaraq müştərilərə «Aykart» taksit tipli kredit kartını təqdim etməklə, istehlak kreditləşməsi üzrə fəaliyyətini genişləndirməyi nəzərdə tutur: «Əhaliyə «Aykart» ilə kredit xəttinin daha rahat ayrılması üçün bankda kütləvi qaydada zaminsiz və iş yerindən arayışsız kreditləşmə mexanizmi də tətbiq edilir. Bu mexanizm tədricən daha da genişlənəcək və digər istehlak kreditlərinə də şamil olunacaq».

S.MUSTAFAYEV